**2020-ci il ərzində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri üzrə görülmüş tədbirlər barədə məlumat**

Hər il olduğu kimi, 2020-ci il ərzində də miqrasiya orqanları əməkdaşları tərəfindən etik davranış qaydalarına əməl olunması, onların fəaliyyətində şəffaflığın və səmərəliliyin, vətəndaş məmnunluğunun təmin edilməsi, miqrasiya orqanlarının nüfuzunun artırılması əsas götürülmüşdür.

Miqrasiya orqanları əməkdaşlarına qarşı tələbkarlığın artırılması və onların müasir standartlara uyğun səviyyədə davranışının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Kollegiyasının 12 noyabr 2020-ci il tarixli 05 nömrəli Qərarı ilə yeni "Azərbaycan Respublikası miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları" təsdiq edilmişdir.

Cari il ərzində miqrasiya orqanları işçiləri tərəfindən etik davranış qaydalarının mənimsənilməsi üçün seminarlar keçirilmiş, "Dövlət qulluqçularının etik davranış qaydaları", "Azərbaycan Respublikasının miqrasiya orqanlarında etik davranış qaydaları", "Azərbaycan Respublikasının miqrasiya orqanlarında daxili intizam qaydaları", "Etik davranış qaydaları və korrupsiyaya qarşı mübarizə texnikaları", "Miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış qaydaları və bu qaydaların pozulmasına görə məsuliyyət", "Miqrasiya orqanlarının fəaliyyətində korrupsiyanın və maraqların toqquşmasının qarşısının alınması" və "Korrupsiya ilə əlaqədar hüquqpozmalar və məsuliyyət" mövzuları daxil olunmaqla onun təbliği təmin edilmişdir. Etik davranış qaydaları ətrafında Dövlət Miqrasiya Xidmətinin iclaslarında və müşavirələrdə geniş müzakirələr aparılmış və bu sahədə icrası zəruri olan tapşırıqlar verilmişdir.

Eyni zamanda, miqrasiya orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həlli, o cümlədən etik davranış qaydalarına əməl olunmasına nəzarət üzrə məsul şəxs (etik müvəkkil) Daxili təhlükəsizlik idarəsinin rəisi təyin edilmişdir.

Hesabat ilində miqrasiya orqanı əməkdaşlarının qulluq etikasının normalarına riayət etmələri vəziyyəti müntəzəm olaraq təhlil edilmiş və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülmüşdür. Belə ki, bu istiqamətdə cari il ərzində "Azərbaycan Respublikası miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları"nda göstərilən vəzifələrin icrası zamanı etik davranış və intizam qaydalarını pozmuş 3 əməkdaşa "irad tutma", 4 əməkdaşa "töhmət", 3 əməkdaşa "şiddətli töhmət", 1 əməkdaşa "tutduğu vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq" intizam tənbehi tədbirləri tətbiq edilmişdir. Həmçinin, 2020-ci il ərzində vəzifələrinin icrası zamanı etik davranış və intizam qaydalarını kobud şəkildə pozmuş 2 əməkdaş miqrasiya orqanlarından xaric edilmişdir.

Hazırda, miqrasiya orqanlarında etik davranış qaydalarına ciddi riayət edilməsi istiqamətində tədbirlər davam etdirilir.